Əfrasiyab Bədəlbəyli.

# O, HAMININ DOSTU İDİ

Məndən soruşanda ki, Üzeyir Hacıbəyovu nə vaxtdan tanıyıram, -doğrusu özümü bir növ, çətin vəziyyətdə hiss edirəm. Qorxuram ki, məni təvazökarsızlıqda günahlandırsınlar. Daha keçib. Üzeyir Hacıbəyovu lap uşaqlıqdan görmüş, tanımış, sevmişəm. Bu səadətə qovuşmağın ilk səbəbi odur ki, Üzeyir Hacıbəyov atamın xalası oğludur.

1910-12-ci illərdə o, atamın müdir olduğu (indiki Sovet küçəsi - hal-hazırda N. Nərimanov - İ.Q.) altıncı rus - Azərbaycan ibtidai məktəbində müəllimlik edirdi. Bundan əlavə əmim Əhməd Ağdamski Üzeyir Hacıbəyovun inqilabdan əvvəl yazdığı bütün opera və operettalarda baş qadın rollarının əsas ifaçısı idi, onunla bərabər Üzeyirin məşğələlərini uzaqdan müşahidə edirdim.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra Bakıda indiki Buynakski (hal-hazırda Şeyx Şamil - İ.Q.) küçəsindəki üçmərtəbəli binanın yuxarı mərtəbəsində Üzeyir Hacıbəyovun təşəbbüsü ilə ilk Azərbaycan musiqi məktəbi yaradıldı. Özü də həmin məktəbə müdir təyin edildi. Bu musiqi məktəbinə mən də qəbul olundum.

Azərbaycan musiqisinin bir çox görkəmli xadimləri həmin məktəbin yetişdirmələridir. Bəstəkar Asəf Zeynallı violonçel sinfində, musiqişünas Xurşud Ağayeva, hazırda Üzeyir Hacıbəyov adına Dövlət Konservatoriyasının professoru Kokəb Səfərəliyeva piano sinfində, Opera və Balet Teatrıiın dirijoru Əşrəf Həsənov mənimlə birlikdə skripka sinfində, Səid Rüstəmov isə tar sinfində oxuyurdu. Bu siyahını genişləndirmək də olar.

İbtidai musiqi nəzəriyyəsi dərsini Üzeyir Hacıbəyov özü deyirdi. Burada o, solfecio məşğələsinə - şagirdin eşitmə qabiliyyətini inkişaf etdirən məşğələlərə çox böyük əhəmiyyət verirdi. Həmin dərslərdə ümumi proqram üzrə nəzərdə tutulan təmrinlərlə yanaşı Üzeyir Hacıbəyov azəri musiqisindən və həm də öz əsərlərindən bizə musiqi imlası yazdırırdı. Yaxşı yadımdadır, "Əsli və Kərəm"dən "İzn ver sən şahim, getsin bu Kərəm..." xorunu yazdırmışdı. Elə də olurdu ki, oradaca bədahətən sadə bir melodiya bəstələyir və yazdırırdı. Solfecio dərslərinin birində bizə belə bir motiv oxuyub imlasını yazdırdı: "Allahdan buyruq, ağzıma quyruq, quyruq...". Bir neçə ildən sonra həmin motiv "Çənlibel ölkəm, hər yeri möhkəm, möhkəm..." məşhur xoruna çevrildi və teatr səhnəsində əzəmətlə səsləndi.

Böyük bəstəkarın rəhbərliyi ilə musiqi məktəbinin tələbələri "Arşın mal alan"ı hazırlayıb opera teatrının binasında göstərdilər. İlk dəfə məhz həmin tamaşada tətbiq edilən bu yeni təşəbbüs sonralar Azərbaycan opera və balet musiqisində də geniş istifadə olunmağa başlandı. Buna görə də mən bunu tarixi tamaşa hesab edirəm.

Tar inqilabdan əvvəl yazılmış Azərbaycan operalarında bir növ müstəqil idi, simfonik orkestrdən ayrılırdı. İlk dəfə həmin musiqi texnikumunda Üzeyir Hacıbəyovun təşəbbüsü ilə tarın not ilə

öyrənilməsi işinin əsası qoyuldu və tələbələrin hazırladığı "Arşın mal alan" tamaşasından başlayaraq tar teatrımızda simfonik orkestrin tam bərabər hüquqlu "üzvü" oldu. Orkestrin musiqi rəhbəri, müəllimi və dirijoru Üzeyir Hacıbəyov idi. O, orkestrin heyətinin tələbələrdən ibarət olmasına xüsusi əhəmiyyət verirdi. Tamaşanın proqramında orkestr iştirakçılarının ad və familiyaları yazılmışdı. O, hər vasitə ilə gəncləri ruhlandırmağa çalışırdı.

Tamaşada Üzeyir Hacıbəyov əsərində dəyişiklik etdi. Muğam operalarında olduğu kimi yalıız bir tarın müşayiəti ilə ifa olunan Füzuli qəzəllərini müəllif simfonik orkestr üçün bəstələdi. "Arşın mal alan" musiqili komediyası "Nalədəndir ney kimi" misralı ariya ilə başlanır. Əvvəllər bu qəzəl "Bayatı Şiraz" muğamı üstə oxunardı. Tamaşada bu ariyanı Əbdül Əmiraslanov adlı bir tələbə ifa edirdi. Onun gözəl, məlahətli səsi vardı. Səhv etmirəmsə indi o, Semaşko (hal-hazırda Musa Nağıyev - İ.Q.) adına xəstəxanada həkim işləyir.

Tamaşadan sonra bu ariya "Arşın mal alan"ın musiqi mətninə həmişəlik daxil edildi. Bundan əlavə Üzeyir Hacıbəyov üçüncü pərdənin sonu üçün yeni bir terset bəstələdi. (Gülçöhrə, Asya və Telli.) Bu üç nəfərin ifasında polifonik üsul ilə ifa olunan trio (terset) azəri musiqi teatrı, təkcə musiqili komediya deyil, həm də opera üçün yeni bir forma idi. Beləliklə həmin tamaşadan sonra "Arşın mal alan" musiqili komediyasının mətni sonuncu dəfə təkmilləşdirildi, indiki variantına düşdü.

Müasir azəri bəstəkarlarının böyük bir nəslinin müəllimi, tərbiyəçisi, rəhbəri, yaxın dostu olan Üzeyir Hacıbəyov son dərəcə nəcib, ürəyi təmiz, mənəviyyatca zəngin bir insan idi. Özgələrinin müvəffəqiyyətinə ürəkdən sevinərdi. Digər bəstəkarlarımız kimi mənə də xeyirxahlıq göstərirdi. Onun qayğısını ilk iri formalı əsərim olan "Qız qalası" baletinin hazırlandığı, tamaşaya qoyulduğu günlərdə daha yaxından hiss edirdim. Üzeyir Hacıbəyov mənim azəri musiqi teatrı üçün tamamilə yeni janr olan balet əsəri üzərində işlədiyimi biləndə bu yaradıcılıq təşəbbüsünü çox bəyəndi. Məni həvəsləndirdi və həm də baletimin partiturasına tar musiqi alətini salmağımı tövsiyə elədi. Mən də əziz müəllimimin bu məsləhətinə əməl etdim.

1940-cı il, aprel ayının 18-də "Qız qalası"nın ilk tamaşası oldu. Böyük bəstəkar həmin tamaşada iştirak edirdi. O, məni təbrik elədi. Sonra "Pravda" qəzeti onun məqaləsini çap eləmişdi. "Qız qalası"na verdiyi qiymətdə böyük bəstəkarın azəri musiqisi üçün necə böyük qayğı göstərdiyi aydın hiss olunurdu. Bəli, o, bütün ömrünü musiqinin inkişafına həsr etmişdi.

**“Ədəbiyyat və incəsənət”, 19 oktyabr 1968**